Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Əhmədov Aqil və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 650 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 09 yanvar 2010-cu il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2009-cu ilin dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 81 saylı Beyləqan seçki dairəsi üzrə Kəbirli bələdiyyəsinə keçirilmiş seçkilərlə əlaqədar Aqil Əhmədov və digərlərinin Mərkəzi Seçki Komissiyasına 09 yanvar 2010-cu ildə daxil olmuş 650 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Seçki Məcəlləsinin və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan müddətdə verildiyindən, araşdırmaya qəbul edilmişdir.

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Aqil Əhmədov və digərləri 2010-cu il yanvarın 09-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, 81 saylı Beyləqan seçki dairəsinin dairə seçki komissiyasının hərəkətsizliyindən şikayət etmişdir. O, şikayətə səbəb kimi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına daxil olmuş və aidiyyəti üzrə baxılması üçün həmin dairə seçki komissiyasına göndərilmiş müraciətinə baxılmamasını göstərmişdir.

Müraciət tərəfimdən araşdırılmış və dairə seçki komissiyası tərəfindən təqdim olunan sübutlara əsasən dairə seçki komissiyasının heç bir hərəkətsizliyə yol verməməsi təsdiqini tapmışdır. Belə ki, 81 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının 2 yanvar 2010-cu il tarixli qərarı ilə A.Əhmədov və digərlərinin dairə seçki komissiyasına daxil olmuş qeyd olunan müraciəti ilə bağlı qərar qəbul edilmiş, qərarın surətinin vətəndaşlara çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın” 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. Vətəndaş Aqil Əhmədov və digərlərinin 09 yanvar 2010-cu il tarixli 650 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar 24 saat müddətində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov